# MƏKTƏBDƏ MƏZUNLA GÖRÜŞ

*Yazıçı-publisist, naşir, poliqrafçı alim Şəddat Cəfərovla 44 saylı məktəbdə görüş oldu*









İnsan yaşa dolur, həyatının bəlkə də ən qaynar, ən qızğın çağlarını sabahında görmək üçün can atır. Bu, insanın hansı yaşda olmasından asılı olmayaraq belədir. Özü də yaşamaq eşqi, həyat həvəsi ilə bağlıdır bu hisslər, bu duyğular. Amma real düşüncə ilə hər kəs öz həyatının ötüb-keçmiş zamanını gözlərinin önünə gətirərsə, onda görər ki, əsl mübarizə zamanları, ən qaynar yaradıcılıq yaşantıları keçmişdə qalıb. Bu keçmişdə qalan nə varsa, şəxsin mənəvi sərvətlərinə çevrilibsə, demək, yaşanmış ömür havayı keçməyib. Qalan izlər insanın əməlinin bəhrəsidir.

Ş.Cəfərov demək olar ki, yetmiş illik əməli fəaliyyətində həyatının bütün gücünü öyrənməyə, öyrəndiklərini həyatına, işinə tətbiq etməyə sərf edib. On beş yaşından başlayaraq əmək fəaliyyətini həyatının mənasına çevirib.

Yaxşı yadımdadır, Ş.Cəfərovun həyatından "İlklər" adlı bir yazı da qələmə almışdım. Həqiqətən yaradıcı insan həyatının mənasını həmişə yeniliklərdə görür. Mətbəədə sinkoqrafiya sexində işə başlayıb. İlk dəfə Azərbaycan mətbəəsinə rəngli klişeləri gətirib. Bəlkə də bu cümləni belə qısaca yazmaqla ilk rəngli klişenin hansı zəhmət hesabına başa gəlməyini oxucuya aydın izah etmək çətindir. Amma hər halda o, bunun üçün Moskvaya ezamiyyətə gedib, məşhur mətbəələrdə təcrübə keçib, rəngli klişelərin sirlərini mənimsəyib. Kitablarda görünən ilk rəngli şəkillər Azərbaycan mətbəələrinin tarixinə əbədi həkk olunub.

...Ali təhsil alıb, riyaziyyat müəllimi kimi pedaqoji fəaliyyətə başlaya bilərdi. Amma mətbəədən ayrılmayıb, poliqrafiyanın elmi əsaslarını mənimsəyib. Və nəhayət, görkəmli poliqrafçı nəzəriyyəçilərin rəhbərliyi ilə Moskvada elmi iş müdafiə edib. Azərbaycanda ilk dəfə poliqrafiya sahəsini tədqiq edən alim kimi məşhurlaşıb. Onu da qeyd edim ki, onun poliqrafiya əsaslarını, xüsusilə, kitab çapı sahəsindəki bilik və təcrübələrini ümumiləşdirən çoxlu kitabları nəşr olunub. İndi həmin kitablar universitetlərin poliqrafiya işi ilə bağlı fakültələrində dərslik kimi öyrənilir. Tərcümə olaraq Rusiyanın, Ukraynanın, Belarusiyanın ali məktəblərində onun oxuduğu mühazirələrin mətnləri bu sahədə hazırlanan dərsliklər üçün əsas olub.

Ş.Cəfərovun ən geniş oxucu əhatəsində tanınmasının bir səbəbi də onun ədəbi-bədii yaradıcılığıdır. Yumoristik hekayələri çoxlu dillərə tərcümə olunub. "Kredo" qəzetinin nəşrində də yaxından iştirak edir. Onun yaradıcılığının zəngin bir qolu da ədəbi-publisistikadır. Son dövrlərdə - son iyirmi illikdə yazdığı ədəbi-publisistik məqalələr "Özəldən bağlıyam sözə" adlı beşcildlikdə toplanıb. S.Rüstəmxanlının həyat və yaradıcılığından bəhs edən kitabı dəyərli məzmunu və yüksək poliqrafik nəşri ilə xüsusi olaraq diqqəti cəlb edir. Onun A.Mansurzadə və qardaşlarının, Q.Cəfərlinin, U.Qasımın, S.Nəsiboğlunun, R.Musanın, eləcə də mənim yaradıcılığımla bağlı qələmə aldığı dəyərli ədəbi-publisistik məqalələri müasir ədəbi-bədii mühitimizdə böyük maraq doğurub.

Ş.Cəfərovu tez-tez müxtəlif təhsil ocaqlarına görüşlərə dəvət edirlər. Demək olar ki, belə tədbirlərin hamısında mən iştirak edirəm. Bütün tədbirlərdə onu oxucuları xüsusi coşqu ilə qarşılayır.

Bu günlərdə 44 saylı məktəbin şagirdləri ilə yazıçı-publisist, naşir, poliqrafçı alim Şəddat Cəfərovun görüşü həzin xatirələr, yazıçının yaradıcılığı ilə bağlı maraqlı təəssüratlarla müşayiət olundu.

44 nömrəli məktəbin şərəfli tarixi var. Məktəb şəhid-qəhrəman Yusif Mirzəyevin adını daşıyır. Bu məktəbin məzunları arasında az qala əfsanəvi qəhrəmanlar səviyyəsində adları olanlar var. Çoxlu sayda əmək qabaqcılları, elm, maarif xadimləri bəxş edib bu məktəb Azərbaycana.

Görüş zamanı təqdim edilən sənədli xronikada görkəmli azərbaycanlıların fotoşəkillərini, xatirələrini seyr etdikcə qəlbim qürur hissiylə döyünürdü. Naşirlik sahəsində ustadım, sənət dostum, müdrik Şəddat müəllimin də bu məktəbin məzunu olduğunu bilmək əsl fərəh qaynağı idi. Xalq yazıçıları Yusif və Vaqif Səmədoğullarının məzunu olduğu məktəbin partasından, sinif otağından Azərbaycanın mənəvi dünyasına yüksəlmiş Ş.Cəfərovun kövrək notlarla süslənmiş xatirələrini dinləmək nə qədər xoş idi.

Tədbirdə məktəbin direktoru Əzizə xanım ətraflı və əhatəli çıxış elədi. təşkilatı işlərə rəhbərliyi Sevinc xanım yüksək səviyyədə aparmışdı. İştirak edən yazıçılar, publisistlər, fotoşəkillərdə əks olunan söz, qələm sahibləri, Şəddat müəllimin doğmaları yüksək sevgi ilə süslənmiş çıxışlarında ömrünün ahıl çağlarını yaşayan və bu gün də yaradıcılıqdan qalmayan Ş.Cəfərova sevgilərini, məhəbbətlərini izhar edirdilər.

Ş.Cəfərovun məktəbdəki bu görüşü məndə belə bir ritorik sual doğurdu. Necə olur ki, insan sevilir? Necə olur ki, onun adı hörmətlə çəkilir? Necə olur ki, həyatı dərslik kimi öyrənilir? Necə olur ki, onun hər bir sözünü dinləyən hər kəs qəlbinin fərəhlə, sevinclə dolduğunu hiss edir?... Cavab isə aydındır. Gərək Ş.Cəfərov kimi yaşaya biləsən. Bunun üçün zəhmətdən qorxmamaq, bütün intellektini, mənəvi imkanlarını insanlığın zənginləşməsinə sərf edəsən. Bax, onda sevilərsən, onda xalqın üçün əziz insan olarsan. Çünki mənəvi saflıq üzərində köklənmiş zəhmətinlə vətəndaş olduğunu, Vətəni, dövləti bütün varlığınla sübut etmiş olarsan.

Böyük örnəklər var. Böyük örnəklər az deyil. Belə böyük örnəklərdən biri də Şəddat Cəfərovdur!

***Əli Rza XƏLƏFLİ***
***11.06.2025***